

# SAZIN-SÖZÜN ŞAKİR MÖCÜZƏSİ

**Yaradan ondan heç nəyi əsirgəməmişdi: şumal boy-buxun, gözəl qamət, şux yeriş, iri qara gözlər, pələng biləklər, ədəb-ərkan... Sazı sinəsinə sıxıb "Koroğlu"dan oxuyanda Koroğlunu, "Əsli və Kərəm"dən oxuyanda Kərəmi xatırladırdı. Şakir böyük istedad sahibi idi: onda dinləyicini, tamaşaçını ovsunlamaq qabiliyyəti var idi. O, 72 saz havası ilə yanaşı, xalq dastanlarının da mahir ifaçısı kimi sevilirdi.**

Şakirin repertuarının əsasını dastanlar təşkil edərdi. O hansı dastanı danışırdısa özünü məharətlə həmin dastanın qəhrəmanına oxşadırdı. Sazın bu mahir ustası dastanın müəyyən yerlərində dinləyiciləri ağladır, bəzən isə danışdığı qaravəllilərlə güldürürdü. Bu zaman sənətkar konsertlərdən qabaq, toylarda meydana girməmişdən əvvəl daim həyəcan və narahatlıq içərisində olardı. Bir dəfə qoca Tolstoydan soruşdular: "Özünü necə hiss edirsən?" Yazıçı cavab verir: "Allaha şükür ki, narahat". Bu, insanlar üçün olan narahatlıq hissi idi. Şakirin narahatçılığı da sənət üçün idi.

Hər dəfə meydana girəndə, səhnəyə çıxanda sanki birinci dəfə idi ki, məclisə düşübdü. Elə ki, sazı götürüb sinəsinə basdı, meydana girdi, dəmirçi körüyü kimi qızardı. Əvvəlcə məclisdə saz çala-çala iki-üç dövrə vurub, gəlib dayanardı ansamblın qarşısında. Birdən "Peşrov" havası ilə meydan sulayardı. O dəmdə elə bil ki, toyxanada tufan qopurdu. Aqillər, sənət qədri bilənlər Şakirin məclisinə tələsərdilər. O, əvvəlcə asta-asta oxumağa başlayırdı. Çox vaxt öz çıxışına Qaraca oğlanın bu sözləri ilə başlayırdı:

***Sazım məndən nə istərsən,***
***Əslin sənin ağacdandır.***
***Ağac dedim sənə dəydi,-***
***Xurma da var-ağacdandır.***

***Çağırın gəlsin aşığı,***
***Aləmə düşsün işığı,***
*Həsən-Hüseynin beşiyi,-*
*O da ki, var ağacdandır.*

*Qurban olum o Alxasa,*
*Qaraca oğlan gedir yasa.*
*Musanın əlində əsa,*
*O da ki, var ağacdandır.*

Bu sözləri oxuyub, bir bənd də özü əlavə edərdi:

*Tanımam sultanı, xanı,*
*Dəstimdə tutdum reyhanı.*
*Balabançının balabanı,*
*O da ki, var ağacdandır.*

Məclisi şuxlandırmaq üçün zarafat edərdi. Deyərdi ki, balabançının adını çəkməsəm yaxşı çalmır. Məclisdəki adamlara baxıb onların barəsində ustadnamələr deyərdi. Çox vaxt ədəb-ərkandan, böyük-kiçikdən danışardı:

*Ədəb-ərkan, böyük-kiçik bilənin,*
*Yeddi yaşı varsa yetmişə bənzər.*
*Yersiz danışanın, yersiz gülənin,*
*Bitməmiş söhbəti, bitmişə bənzər.*

*İnsan odur ədəb ilə hər yerdə,*
*Ya kənddə yaşasın, ya da şəhərdə,*
*Bir adam olmasa xeyirdə, şərdə,*
*Ölüb bu dünyadan getmişə bənzər.*

Məclisə üz tutub ağsaqqal kimi deyərdi ki, elə oturub-durmaq lazımdır ki, hamı səndən ibrət alsın. Sözü-

nə ustadnaməylə qüvvət verərdi:

*Salam verib bir məclisə gələndə,*
*Yaxşı əyləş, yaxşı otur, yaxşı dur.*
*Kim dindirsə kəlmə-kəlmə cavab ver,-*
*Görən desin, bərəkallah, yaxşıdır.*

*Mənəm deyənləri tanı elində,*
*İgidin saxası olur dilində.*
*Pis övladın, yaxşı ata yerində*
*Qalmaqdansa, qalmamağı yaxşıdır.*

*Ay Ululu Kərim, söz yerdə qalmaz,*
*Nakəs kimsənələr dost qədri bilməz,*
*Öyrən demək ilə namərd öyrənməz.*
*Hər kəsənin öz biləni yaxşıdır.*

Deyərdi ki, məclislərdə dünyasını dəyişən böyük ustadlardan danışıb, oxuyub onların ruhunu şad etmək lazımdır. O ustadların ruhu bu sazlı-sözlü məclisləri dolanır deyərdi. Üçüncü ustadnaməni çox vaxt övlad-valideyn münasibətləri barəsində deyərdi. Həyatda xoşbəxt o valideyndir ki, onun yaxşı övladları var. Pis övladı Allah heç kimə qismət etməsin.

*Ata-ana sağkən, saymayan övlad,*
*Öləndə hörmətin başına dəysin.*
*Cənazə başında qoparıb fəryad*
*Həşir-qiyamətin başına dəysin.*

*Övladsan atanı sağ vaxtı ara,*
*Ana "ağ" deyəndə, sən demə "qara".*
*Onlar bu dünyadan köçəndən sonra*
*Xərcin-xəcalətin başına dəysin.*

*Atanı-ananı sağ vaxtı istə,*
*Tərifin deyilsin eldə, məclisdə.*
*Öləndə gül töküb qəbrinin üstə*
*Verdiyin zinətin başına dəysin.*

Üç ustadnamədən sonra "Şirvan şikəstəsi" ilə məclisə ayaq verərdi:

*Çoxdandır hüsnünə əsirəm, qulam,*
*Yar səndən xəbərsiz, eldən xəbərsiz.*
*Bülbüləm, ahımdan özüm boğullam,*
*Çəməndən, çiçəkdən, güldən xəbərsiz.*

*Gözüm yollardadır, göndər cavabı,*
*Şakirin bir günlük qalmayıb tabı.*
*Sayıram günləri barmaq hesabı,*
*Aylardan xəbərsiz, ildən xəbərsiz.*

Şikəstədən sonra üzünü məclisə tutub müraciət edərdi. Əzizlərim, buyurmaq sizdən, qulluğunuzda ərz eləmək bizdən. Aşıq sənətində bildiklərimizdən:

*Bilin bu sənətin nə olduğunu,*
*Aşıqlıq dəryadır görünmür sonu,*

- deyərdi. Sonra bir oynaq, şux aşıq mahnısı ilə məclisi ruhlandırardı.

*Xub yaraşar nazlı yara,*
*Ağ üstündən geysə xara.*
*Yarı göyçək olanlara*
*Al da birdi, şal da birdi.*

*Yar meylini yara salsa,*
*Küsdürüb könlünü alsa,*
*Dost süfrəsi açıq olsa*
*Şor da birdi, bal da birdi.*

*Şakir bağdan bir gül dərsə,*
*Gözəllərdə vəfa görsə,*
*Yarın sənə busa versə*
*Sağ da birdi, sol da birdi.*

Məclis əhli Şakirin başına nəməri yağış kimi yağdırardı. Yerbəyerdən səslər eşidilərdi. Ondan "Abbas və Gülgəz", "Əsli və Kərəm", "Koroğlu", "Novruz və Qəndab", "Abdulla və Cahan", "Ələsgər və Dəli Alı", "Məsim və Diləfruz", "Tahir və Zöhrə" və s. dastanları oxumağı xahiş edərdilər. Şakir belə vaxtı ağsaqqallara üz tutardı, deyərdi görək ağsaqqallar nə buyurur. Ağsaqqallardan biri "Alı xan və Pəri" dastanını danışmağı xahiş edərdi. Şakir sazı sinəsinə sıxıb meydana girər və söhbətə belə başlayardı:

- Əzizlərim, sizə ərz eləyim Pitlis şəhərindən. Pitlis şəhərində kimdən? Hacı Sayaddan. Pitlis şəhərində Hacı Sayad adlı varlı-karlı bir kişi var idi...

O heç vaxt dastanı kitablarda bizə çatan variantlarda olduğu kimi təhkiyə etməzdi. Bir də görərdin ki, həmin hadisənin məzmununu almaq üçün şirin bir qaravəlli danışardı, yaxud bir bayatı deyərdi. Şakirin səsi imkan verərdi ki, muğam oxusun. "Alı xan və Pəri" dastanında söhbətin o yeri idi ki, Tapdığı bir ilanvurmuş qarı çuğulluq edib öyrətmişdi. O da Pərini məcbur evlənməyə dəvət edirdi. Bu yerdə Pəri Tapdığa üçdörd bənd söz oxumuşdu:

*Başına döndüyüm, qurban olduğum,*
*Çıxma yoldan, qardaş, aman günüdü.*
*Alışıb oduna büryan olduğum,*
*Çıxma yoldan, qardaş, aman günüdü.*

*Bu dərd qalar, Pəri xanım, canında,*
*Pərvanətək yanar, şamlar yanında,*
*Üzüqara durruq haqq divanında,-*
*Tapdıq, çıxma yoldan aman günüdü.*

Şakir "Döymə Kərəmi" üstündə bu sözləri ifa etdikdən sonra muğam üstündə Mikayıl Azaflının bu sözlərini oxumuşdu:

*İki saf sevginin, iki könülün*
*Girib arasını qatana lənət.*
*Aldanıb dünyada vara, dövlətə,*
*Namusu, qeyrəti satana lənət.*

*Azaflı Mikayıl, yeriyər-yetər,*
*Düz deyib atalar, əkilən bitər.*
*Yeziddən, şeytandan, şümürdən betər*
*Dosta quyu qazan, atana lənət.*

Söz elə yerinə düşmüşdü ki, elə bil "Alı xan və Pəri" dastanına həsr edilmişdi, yəni bir növ onun davamı kimi səslənmişdi. Ümumiyyətlə, aşıq Şakir başqa aşıqlardan oxumağı heç vaxt özünə ar bilməzdi. Onu da qeyd edim ki, dinləyiciləri söhbətə, dastana cəlb etmək hər aşığa müyəssər olmayıb. Gözəl məzmunlu bir dastanı öz zəif sənətkarlığı ilə puç edənlər olub. Şakir isə öz əlavələri ilə dastanı zənginləşdirib heyrətamiz şəklə salanlardan olub.

- Bəli, "Alı xan və Pəri" dastanının o yerindəydik ki, Pərini qardaşı Məhəmməd ölmüş bilib onun qanlı köynəyini atasına gətirib verdi. Alı xan ova çıxanda Pərini meşədən tapıb gətirəndən sonra Pəri sağaldı. Alı xan Pəri xanımla həyat qurdu. Artıq Pəri iki oğul anası idi. Uşaqlar 9-10 yaşlarına çatmışdılar. Bu yerdə Şakir dastanda yazılandan əlavə olaraq deyirdi: Gecənin bir aləmində Pəri yatmışdı, oğlu ondan soruşdu. Ana, sənə nə olub ki, ağlayırsan, yatmayırsan? Ana ağlaya-ağlaya "Zarıncı" şikəstə üstə:

*Haray naşı əlindən,*
*Atmır daşı əlindən.*
*Yastığım giley eylər,-*
*Gözüm yaşı əlindən.*

*Əziziyəm gecədən,*
*Karvan gedir gecədən.*
*Gecə uzun, ay batmaz,-*
*Zəhləm gedir gecədən.*

*Əziziyəm, dinc əlim,*
*Dinc ayağım, dinc əlim.*
*Elimdən uzaq düşdüm,-*
*Necə yatım, dincəlim.*

Özü də Şakir bu bayatıları elə yanıqlı-yanıqlı oxuyardı ki, məclisdə əyləşənlər arasında ağlamayanı olmazdı. Bunun ardınca əlavə edib deyərdi:

*Qızılın qiymətin əsl zərgərdən,*
*Sözün qiymətini qanandan sorun.*
*Vətən həsrətini, el həsrətini*
*Qərib-qürbət yerdə olandan sorun...*

Dübarə bir misal gətirərdi: "Torağay quşunu salmışdılar qəfəsə. O quş da vətən, vətən, ax, ana vətən deyib ahu-zar edərdi. Şah əmr etdi ki, torağayı buraxın, görün hara uçub gedəcək, onun vətəni haradır? Torağayı buraxırlar və görürlər ki, gəlib sirkan topasının yanında dayandı. Ax, qurban olum sənə, ay vətən, səndən bir günüm də ayrı olmasın".

Şakir dastanı nağıl edərkən dilsiz-ağızsız quşların da vətənsiz yaşayıb narahat olmağından söhbət açardı, misal gətirərdi. Onu da qeyd edim ki, Şakir dastan danışarkən mərhum Həsrət Hüseynov balabanı elə çalırdı ki, bəzən Şakir özü də kövrəlirdi.

Uğurlu sonluqla bitən dastanları Şakir danışıb qurtaranda elə bil dinləyicilərin çiynindən ağır bir yük götürülürdü. Aşıq Şakir dastanı gözəl bir duvaqqapma ilə yekunlaşdırırdı. Şakirin danışdığı dastanlara qulaq asan uşaqlar, gənclər özlərini dastan qəhrəmanlarına oxşatmağa çalışırdılar. Hətta onlardan eləsi olurdu ki, səsini-danışığını Şakirin danışığına oxşatmaq istəyirdi. Bəli, Şakir gənclər üçün bir örnək idi. O, gənc aşıqlara Dədə Ələsgərin sözünü heç vaxt unutmamağı məsləhət görürdü:

*Aşıq olub diyar-diyar gəzənin*
*Əzəl başdan pürkamalı gərəkdi.*
*Oturub duranda ədəbin bilən*
*Mərifət elmində dolu gərəkdi.*

Elə bu elmin, kamalın nəticəsidir ki, Şakir özü getdi, lakin aşıq sənətində zəngin bir irs, məktəb qoydu.

Əhliman RƏHİMOV,
*ADMIU-nun müəllimi,*
*əməkdar incəsənət xadimi*

SUMMARY

**Ashing Shakirs acting**

The subject of the paper is Ashing Shakir Hajiyev, one of the ontstanding represantitavies of Shirvan ashing envirement and Azerbaijan on the whole. Ashing Ahliman shares his impressions on the background of remincences about his master conducting feast parties and acting talent with readers of our magazine.